# Azərbaycanın tarix və mədəniyyət abidələri bu gün

(Əvvəli ötən sayımızda).

Amma biz imkan vermədik. Azərbaycanda bu məsələ ilə bağlı kifayət qədər böyük elmi baza var, əsərlər var. Bu əsərlər nəinki elmi ictimaiyyətə, bütövlükdə dünya ictimaiyyətinə çatdırılır və çatdırılmalıdır. Qafqaz Albaniyası böyük dövlət olub. Onun paytaxtı Qəbələ şəhəri olub. Qafqaz Albaniyasına aid olan tarixi abidələr, kilsələr bizim tarixi-mədəni sərvətimizdir. Biz bu kilsələri qoruyuruq".

Azərbaycan mədəniyyətinin, incəsənətinin çiçəklənməsi və inkişaf etməsi dünya miqyasında tanınması,tarix və mədəniyyət abidələrimizin göz bəbəyi kimi mühafizəsi sahəsində ümummilli liderimiz Heydər Əliyevin böyük əməyi olmuşdur. 1970-ci illərdə RLS-ə elektrik xəttlərinin çəkilməsi zamanı qədim Qəbələ qalası ətrafında qanunsuz elektrik dirəklərinin basdırılması "Tarixi abidələrin mühafizəsi "qanunda ciddi şəkildə pozuntular yaradırdı. Heydər Əliyev 2500 illik tarixi olan qədim Qəbələ qalasını elə həmin illərdə məhv olmaq təhlükəsindən qurtardı. Tarixi baxımdan qanuna zidd olan bu planın gerçəkləşməsinə yol vermədi. Bunula da bu gün fərəhlə bütün dünyanın görməyə can atdığı qədim Qəbələ qalasına, digər tarixi ətraf ərazilərə zədələr vurulmadı.

Qərinələr, yüzilliklər yola vərən tarixi abidələrimizə belə münasibət bu gün hər bir azərbaycanlının mənəvi borcudur. Tarix və mədəniyyət abidələrinin mühafizəsi, onların qorunması və gələcək nəsillərə çatdırılması üçün daim diqqət mərkəzində olmalıdır.

Bu gün Qəbələ rayonunu da tarixi abidələr beşiyi adlandırsaq səhv etmərik. Burada yüzə yaxın tarix və mədəniyyət abidəsi vardır. Buna misal olaraq qədim Qəbələ şəhərinin ərazisində "Qala divarları", "Kilsədağ məbədi" (ilk tunc dövrü), Vəndam kəndində "Hacıqaraman körpüsü", "Mirzalı evi" (XIX əsr), "Karvansara", Həzrədə "Türbələr" kompleksini, Bumda "Cümə" məscidi (1887)", "Govur" qalası (VII-IX-əsr), "Karvansara" (XIX-əsrin ortaları), Nic kəndində "Yaloylutəpə" (Antik dövr), "Hacı Qərib məscidi", "Bolubəyin evi", Qəbələnin mərkəzində keçmiş hamam binasının qalıqları (IX-XI əsr)", "Səkkizgüşəli məscid" və indiki "Cümə məscidi"ni (1899-1906) göstərmək olar.

Bu gün respublikamızda tarix və mədəniyyət abidələrini aşkar olunması, öyrənilməsi, mühafizəsi ilə bağlı qanunlara düzgün əməl etmək lazımdır. Nə etməli? Bu sual qarşısında hamımız yaxşı-yaxşı fikirləşməliyik. Milli sərvətlərimizi, tarix və mədəniyyət abidələrimizi göz bəbəyi kimi qorumalı, gələcək nəsillərə çatdırmalıyıq. Mühafizə, tədqiqat və təbliğat işi istiqamətində fəaliyyətimizi genişləndirməliyik. Çünki hər bir xalq öz mədəniyyəti ilə tanınır və buna görə də tariximizi əks etdirən hər daşı, hər qaya parçasını göz bəbəyi kimi qorumalıyıq. Bu gün cəmiyyətin hansı inkişaf mərhələsində yaşamasından asılı olmayaraq xalqın mədəniyyəti intellektual səviyyəsi, estetik əxlaqı münasibətləri əsas yer tutmalıdır. Bir daha unutmamalıyıq ki, mədəniyyətimiz xalqımızın güzgüsüdür. Bir sözlə tarixi abidələrimizi qorumalı, mühafizə və təbliğ etməliyik, çünki bu bizim gələcəyimizin təminatıdır.

**İlhamə SEYİDOVA,**
**Qəbələ rayon Tarix-Diyarşünaslıq Muzeyinin elmi işçisi.**

# İslam dünyasının mədəniyyət paytaxtı



Qəbələ rayon Heydər Əliyev Mərkəzi və Şuşa rayon 24 saylı ümumi orta məktəbin birgə təşkilatçılığı ilə Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə əlaqədar "Şuşa - Azərbaycanın tarixi mədəniyyət mərkəzi" adlı tədbir keçirilib. Tədbirdə öncə Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib, Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda canından keçən qəhrəman vətən oğullarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib. Tədbiri giriş sözü ilə Mərkəzin direktoru Kəmalə Qasımova açaraq bildirib ki, Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərinin 2024-cü il üçün "İslam dünyasının mədəniyyət paytaxtı" elan edilməsinin İslam mədəniyyətinin zənginliklərini dolğun təzahür etdirən Şuşaya xüsusi ehtiramın ifadəsidir və bu, İslam dünyasının həmrəyliyinin daha da genişləndirilməsində özünəməxsus rol oynayacaqdır. Tədbirdə Şuşanın tarixi, mədəniyyəti, elm və incəsənət xadimləri haqqında geniş məlumat verilmişdir. Sonda şagirdlərin ifasında şeir kompozisiyaları səsləndirilmiş, mövzu ilə bağlı videoçarx nümayiş olunmuşdur.

# Baramaçılıq inkişaf etdirilir

Bu ilki mövsümdə Qəbələ rayonunda yaş barama istehsalının 10 tona çatdırılması nəzərdə tutulur. Barama yetişdirilməsi ilə əlaqədar 62 kümçü ailəsi ilə müqavilə bağlanılıb, onlara 250 qutu, yəni 4.75 kiloqram



ipəkqurdu paylanılıb. Hal-hazırda rayonda ipəkqurdunun yemləndirilməsi təlimata uyğun aparılır. Cari mövsümdə Qəbələdə baramaçılıq sahəsində 120-dən çox kənd sakininin məşğulluğu təmin olunub.

# Rənglərin sehrli dünyası

(Əvvəli 4-cü səhifədə).

Qəbələ Mədəniyyət Mərkəzində çalışdığı müddətdə çox sayda müsabiqələrdə iştirak edən rəssam müxtəlif vaxtlarda diplom, Fəxri Fərman, sertifikatlara layiq görülüb.

24 fevral 2021-ci ildə Qəbələ TV-nin qonağı olur. 2021-ci ildə Xəzər TV-də yayımlanan "Mərkəzi Asiya Talant" müsabiqəsinə dəvət alır. Birinci turu qazanan gənc rəssam Qazağıstanın Türküstan şəhərində keçirilən müsabiqənin iştirakçısı olur.

2022-ci ilin 16 fevralında AZ TV-nin "Səhər"proqramına dəvət alır, əl işləri ilə iştirak edir.

Bir çox uğurlara imza atan Gülbəniz xanım arabir fərdi sərgilər təşkil edir. Müxtəlif illərdə incə zövqlə, özünəməxsus nəfis tərtibatla yaratdığı sənət əsərləri geniş tamaşaçı rəğbəti qazanır.

Fərdi sərginin müəllifi Gülbəniz Gözəlova onlar üçün yaradılmış şəraitə görə minnətdarlığını bildirib, sərgidə iştirak edən qonaqlara təşəkkür edib. Gülbəniz Gözəlovanın dekorativ əl işlərinə baxış keçirilib. Sərgidə Sanama tikmə üslubda işlənmiş portret, natürmort, mənzərə, qrafika və dekorativ işlərdən ibarət 30 əsər nümunələri nümayiş olunub.

***Jalə FƏRZİYEVA,***
**Natəvan YUSİFOVA,**
**rayon mədəniyyət şöbəsi.**




QƏBƏLƏ

qəzetinə

**2024-cü ilin birinci yarısı üçün abunə yazılışı davam edir.**

**Yarımillik abunə qiyməti 20 manatdır.**

***Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.***

***Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.***

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.


# Əmək yarmarkası



Qəbələ Dövlət Peşə Təhsil Mərkəzində Dövlət Məşğulluq Agentliyinin Şəki-Zaqatala Regional Məşğulluq filialının Qəbələ Xidmət şöbəsinin dəstəyi ilə əmək yarmarkası keçirilmişdir. Qəbələ rayonundan olan sakinlərin iştirak etdiyi yarmarkada 12 müəssisə tərəfindən 200 vakansiya əmək yarmarkasına çıxarılmışdır.

# İTMİŞDİR

Əmirvan kənd sakini **Allahverdiyev Sərdar Əjdər oğluna** məxsus Belarus-892 markalı traktorun **texniki pasportu** itdiyi üçün etibarsız sayılır.

Hacıalılı kənd sakini **Əhmədov Müşviq Zakir oğluna** məxsus vergi işləri üzrə Orion-100F 00000078 nömrəli **kassa aparatı** itdiyi üçün etibarsız sayılır.


Redaktor
Azad Məmmədov.

TƏSİSÇİ:
Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeydən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1270*